Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 59 (8082) CÜMƏ AXŞAMI, 14 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Avrasiyanın tranzit və logistik mərkəzi

## Şimaldan Cənuba, Şərqdən Qərbə ən qısa yollar Azərbaycandan keçir

Tarixi İpək yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Müasir dövrdə ölkələr arasında əlaqələrin məzmunu yeni keyfiyyət dəyişikliklərinə məruz qalsa da, qədimdən mövcud olan ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını yenə də qoruyub saxlayır. Xüsusən qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir.

### Beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısı

Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Ona görə də dünya təsərrüfatının nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmayan Azərbaycan regionun ticarət mərkəzinə çevrilmək məqsədilə son illərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tranzit potensialının daha da artırılması üçün konkret hədəflərə istiqamətlənmiş kompleks tədbirlər həyata keçirir.

Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olan Azərbaycan həm üzərinə düşən bütün işləri vaxtında reallaşdırır, həm də prosesə öz müsbət töhfəsini verir.

Azərbaycan Prezidentinin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verməkdədir. Bu gün Çindən Avropaya yüklərin 34 gün deyil, 12-15 gün ərzində çatdırılması bu dəmir yolunun bütün tərəflərə nə qədər iqtisadi dividendlər qazandırdığını bir daha təsdiqləyir.

### Azərbaycandan Orta Asiya ölkələrinə böyük dəstək

Əgər diqqət etsək görərik ki, ötən il Azərbaycan nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə edib. Prezident İlham Əliyev "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi"nin uğurlu fəaliyyəti üçün bir çox görüşlər keçirib, razılaşmalar əldə edilib.

Ötən il Prezident İlham Əliyevin Türkmənistana dövlət səfəri çərçivəsində imzalanan 21 sənədin 9-nun məhz nəqliyyat sektoruna aid olması bunu bir daha təsdiqləyir.

Onu da əlavə edək ki, Türkmənistanla əldə edilmiş razılaşma digər Orta Asiya ölkələri, Əfqanıstan üçün də real imkanlar yaradacaq. Belə ki, bu ölkələr öz yüklərini Türkmənistandan keçirməklə Azərbaycan ərazisindən "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi" ilə dünya bazarlarına çıxarmaq imkanı qazanacaqlar. Artıq Əfqanıstandan yüklər Türkmənistan ərazisindən Azərbaycana, sonra da Qərb istiqamətinə getməyə başlayıb.

### "Şimal-Cənub" dəhlizi ilə daşınan yüklərin həcmi getdikcə çoxalır

Azərbaycan "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında da aktiv fəaliyyət göstərən ölkələrdəndir. Məhz bu baxımdan Astaraçay üzərində dəmir yolu körpüsünün tikintisi, eləcə də Azərbaycan və İran sərhədində dəmir yolu məntəqələrinin birləşməsi üzrə nəzərdə tutulan inşaat işləri ölkəmiz tərəfindən sürətlə icra edilib.

Hazırda Azərbaycan İran ilə birgə Astarada yük terminalının tikintisini davam etdirir. Terminal 35 hektar ərazini əhatə edir və Azərbaycan bu terminalı 25 il, eləcə də 1,4 kilometrlik dəmir yolunu 15 il müddətinə icarəyə götürəcək. Terminal 4 bölmədən ibarətdir. Burada ümumi yüklər, konteyner, taxıl, neft və neft məhsulları üçün bölmələr olacaq. Rəşt-Astara dəmir yolu xəttinin inşası başa çatdıqdan sonra Fars körfəzi ilə Skandinaviya ölkələri arasında nəqliyyat bağlılığı yaranacaq.

*Ardı 5-ci səh.*

*Miryana EQQER, BMT İnkişaf Proqramının rəhbərinin müavini:*

# "Azərbaycan yüksək göstəricili orta gəlirli ölkələr sırasındadır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı BMT İnkişaf Proqramının ölkəmizdə iyirmi ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğuladı.

Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirdi. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu dedi.

Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# VII Qlobal Bakı Forumunda 50 ölkədən 500-dən artıq nümayəndə iştirak edəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirdi. Xanım Vayra Vike-Freyberqa dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğuladı. Xanım Vayra Vike-Freyberqa bildirdi ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlət başçısı mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd etdi və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini dedi və forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğuladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

# Fransada Azərbaycana yüksək ehtiram var

## Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri mövcud münasibətlərin dərinləşməsinə və yeni əməkdaşlıq əlaqələrinin yaranmasına xidmət edəcək

Azərbaycanın Avropanın əksər dövlətləri ilə siyasi əlaqələri yüksək səviyyədədir. Bu sırada Avropanın istər əhali, istər ərazi baxımından ən böyük dövlətlərindən olan Fransa ilə əlaqələri xüsusilə diqqət çəkir. Birinci vitse-prezident Mehriban Əliyevanın bu günlərdə Parisə səfəri və keçirdiyi görüşlər iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişafından xəbər verdi.



### Azərbaycan diplomatiyasında önəmli yer tutan ölkə

Azərbaycanla Fransa arasındakı əlaqələr heç də müstəqillik illərində formalaşmayıb. Bu əlaqələrin tarixə söykənən siyasi, iqtisadi və mədəni kökləri var. Azərbaycanın müstəqillik illərində isə ilk vaxtlardan Fransa ölkəmizin diplomatiyasında önəmli yer tutub. Bu ölkə Azərbaycanın dövlət müstəqilliyini 1992-ci ilin yanvarında tanıyıb və elə həmin ilin fevralında Fransa ilə ilk diplomatik əlaqələr qurulub. Fransanın Azərbaycandakı səfirliyi 1992-ci ilin martında fəaliyyətə başlayıb. 1993-cü ildə ulu öndər Heydər Əliyevin Prezident seçilməsindən sonra əlaqələrin inkişafı yeni mərhələyə daxil olub. Belə ki, ulu öndər Heydər Əliyev Avropa ilə əməkdaşlıq siyasətinə Fransadan başlayıb və xaricə ilk rəsmi səfərini də Parisə edib. Həmin vaxtdan iki ölkənin münasibətləri sürətlə inkişaf edib.

Son 15 ildə Azərbaycanın beynəlxalq əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən Prezident İlham Əliyev də xarici siyasətdə Fransa ilə əlaqələrə önəm verib. Prezident İlham Əliyev də dövlət başçısı kimi 2004-cü ildə ilk rəsmi səfərini Fransaya etmişdi. Fransanın sabiq prezidentləri J.Şirak, N.Sarkozi və F.Olland Azərbaycana səfərlər ediblər. Beləliklə, iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri ənənəyə çevrilib. Ayrı-ayrı vaxtlarda isə dövlət başçıları hər iki ölkənin ali orden və medalları ilə təltif olunublar. Bu dünyanın və Avropanın siyasi səhnəsində öz yeri olan Fransanın Azərbaycanla əlaqələrə verdiyi önəmin və iki ölkə arasındakı əlaqələrin yüksək səviyyədə olmasının təsdiqidir.

Hazırda Azərbaycanla Fransa arasındakı əlaqələr bütün sahələrdə ürəkaçandır. Ötən ilin iyulunda Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfəri siyasi əlaqələrin yüksək səviyyədə olmasının təsdiqi idi. İqtisadi münasibətlərə gəldikdə, hazırda Azərbaycanda 59 Fransa şirkəti fəaliyyət göstərir. Fransızlar ən böyük sərmayələrini mədən sənayesinə yatırıblar. Lakin son illərdə iqtisadi əməkdaşlıq kifayət qədər müxtəlif sferaları - nəqliyyat, hava nəqliyyatı, ictimai nəqliyyat, metro, kosmos və digər sahələri əhatə edir.

*Ardı 5-ci səh.*



# Mehriban Əliyeva Roma Papasını təbrik etdi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.

# Çin ilə Azərbaycan arasında dostluq münasibətləri mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd etdi.

Dövlət başçısı Azərbaycan-Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Çinə rəsmi səfərlərini xatırlayan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

## Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən yaradıcılıq ittifaqları və birlikləri milli ədəbiyyatın və ana dilinin inkişafında, xalqımızın zəngin musiqi irsinin dünyada geniş miqyasda tanıdılmasında, teatr, kino və aşıq sənəti ənənələrinin qorunub saxlanılması və təbliğində fəal iştirak edir.

Ölkənin mədəni həyatında və ədəbi-ictimai fikrin formalaşmasında, habelə Azərbaycanda mədəniyyətin, incəsənətin təbliğində, memarlığın inkişafında yaradıcı kollektivlərin rolu əvəzsizdir.

Azərbaycan yaradıcılıq ittifaqları və birliklərinin müraciətlərini nəzərə alaraq, onların fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 (səkkiz yüz) min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 650 (altı yüz əlli) min manat, Azərbaycan Rəssamlar İttifaqına 350 (üç yüz əlli) min manat, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına 300 (üç yüz) min manat, Azərbaycan Memarlar İttifaqına 250 (iki yüz əlli) min manat, Azərbaycan Teatr Xadimləri İttifaqına 250 (iki yüz əlli) min manat və Azərbaycan Aşıqlar Birliyinə 250 (iki yüz əlli) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

## "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid "Çıraqqala" abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2019-cu il*

## *Miryana EQQER:* "BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir"

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri reallaşır. Bu layihələrin həyata keçirilməsi Azərbaycanda uğurla reallaşan bir çox islahatların nəticələrinin müsbət olmasına öz təsirini göstərir.

BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini deyib. Miryana Eqqer Azərbaycana ilk səfəri çərçivəsində tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadilələri aparmaqda maraqlı olduğunu qeyd edib.

# Müdafiə naziri ön xətt bölmələrində olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı təlimlərə rəhbərlik edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirə əməliyyat şəraitinin vəziyyəti barədə məruzə edilib. General-polkovnik Z.Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Bölmələrdəki şəraitlə tanış olan müdafiə naziri şəxsi heyət üçün yeni tikilən əsgər yataqxanası, silah otağı, ideoloji otaq, yeməkxana, məişət otağı, hamam, əşya anbarı, eləcə də digər xidməti obyektlərdən ibarət olan yaşayış kompleksinin açılışında iştirak edib.

Görülən işlərlə maraqlanan general-polkovnik Z.Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini xüsusi vurğulayıb.

Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

Sonra nazir cəbhəboyu zonada yerləşən kəndlərdən birində yerli sakinlərlə görüşərək əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə yaşayış məntəqələrimizin müdafiəsi barədə söhbət edib.

## "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 83, № 11, maddə 1364; 2015, № 6, maddə 682; 2018, № 10, maddə 1986) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.2-1-ci maddə əlavə edilsin:

"1.2-1. Doğum haqqında şəhadətnamə ilə birlikdə ilk dəfə verilən fərdi identifikasiya kartının alınması üçün vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs də müraciət edə bilər.".

2. 3.2-ci maddəyə "nümayəndəsi" sözündən sonra "və ya bu qanunun 1.2-1-ci maddəsində nəzərdə tutulmuş halda onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri əlavə edilsin.

3. 7-ci maddəyə "nümayəndəsindən" sözündən sonra "və ya onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsdən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1467-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1467-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1028; 2015, № 10, maddə 1141; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 376; 2018, № 9, maddə 1834) ilə təsdiq edilmiş "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Doğum haqqında şəhadətnamə ilə birlikdə ilk dəfə verilən fərdi identifikasiya kartının alınması üçün vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs də müraciət edə bilər.";

3.2. 2.3-cü və 2.7-ci bəndlərə "qanuni nümayəndədən" sözlərindən sonra "(bu Əsasnamənin 2.2-1-ci bəndində nəzərdə tutulmuş halda onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsdən)" sözləri əlavə edilsin;

3.3. 2.4.6-cı yarımbəndə "və ya qəyyumu" sözlərindən sonra ", yaxud qanuni nümayəndənin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri əlavə edilsin;

3.4. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətini müəyyənləşdirmək zərurəti yarandıqda, qeydiyyat şöbəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə sorğu göndərir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti tanındıqda, bu əsasnamə ilə müəyyən edilmiş qaydada fərdi identifikasiya kartı verilir (kartın verilməsinə görə bu Əsasnamənin 2.14-cü bəndi ilə müəyyən edilmiş müddətlər Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin cavab məktubu qeydiyyat şöbəsinə daxil olduğu andan hesablanır).";

3.5. 2.17.8-ci yarımbəndə "məlumatlar" sözündən sonra (tibb müəssisəsi, immunlaşdırma və digər tibbi məlumatlar) sözləri əlavə edilsin;

3.6. 2.23-cü bənd üzrə:

3.6.1. "hüquqi şəxslər" sözlərindən sonra "(tibb müəssisələri istisna olmaqla)" sözləri əlavə edilsin;

3.6.2. "2.17.8-ci" sözləri "2.17.7-ci" sözləri ilə əvəz edilsin;

3.6.3. "2.17.2" rəqəmlərindən sonra ", 2.17.8" rəqəmləri əlavə edilsin;

3.7. aşağıdakı məzmunda 2.23-1-ci bənd əlavə edilsin:

"2.23-1. Tibb müəssisələri üçün bu əsasnamənin 2.17.1, 2.17.3 - 2.17.8-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatların oxunuşu açıq, 2.17.2 və 2.17.9-cu yarımbəndlərində nəzərdə tutulmuş məlumatların oxunuşu isə bağlıdır.";

3.8. həmin əsasnaməyə Əlavə - "15 yaşı tamam olmamış Azərbaycan Respublikasının vətəndaşına fərdi identifikasiya kartının verilməsi (dəyişdirilməsi) haqqında Ərizə-Anket" üzrə:

3.8.1. 1-ci hissənin birinci abzasına "qanuni nümayəndəsi" sözlərindən sonra "(onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs)" sözləri əlavə edilsin;

3.8.2. 2.1-ci bəndə "qanuni nümayəndəsinin" sözlərindən sonra "(onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin)" sözləri əlavə edilsin;

3.8.3. 2.2.9-cu yarımbəndə "və ya qəyyumu" sözlərindən sonra ", yaxud qanuni nümayəndənin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1326-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12, maddələr 2541, 2566, 2573, 2610; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 yanvar tarixli 462 nömrəli və 16 yanvar tarixli 478 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.1-ci bənddə "538.1.6" rəqəmləri "538-1.6" rəqəmləri ilə, 4.41-1-ci bənddə "538.1.6-cı" sözləri "538-1.6-cı" sözləri ilə əvəz edilsin;

1.2. 5.1-ci bəndə "212.1" rəqəmlərindən sonra ", 212.4" rəqəmləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. həmin məcəllənin 212.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi baxır;".

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12, maddələr 2556, 2597; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 yanvar tarixli 492 nömrəli və 4 fevral tarixli 514 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci, 2.5-ci və 2.9-cu bəndlərinə "212.1" rəqəmlərindən sonra ", 212.4" rəqəmləri və "başlanıldıqda məcəllənin" sözlərindən sonra "212.5," rəqəmləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında 2019-cu il yanvarın 28-də Ər-Riyad şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 451; 1999, № 5, maddə 293; 2001, № 12, maddələr 731, 736; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561, № 11, maddə 1078; 2008, № 7, maddə 602) 6-cı maddəsinin aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

“Bu qanunun 12-ci maddəsinin 7-ci hissəsində və 14-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müavinətlərin təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 2.** “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 738; 2005, № 6, maddə 466; 2007, № 5, maddə 401, № 11, maddə 1071; 2008, № 2, maddə 49; 2018, № 5, maddə 866) 4-cü maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

“4.1. Dövlət sosial sığorta sistemində fərdi uçotu məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı aparır.

4.2. Dövlət sosial sığorta sistemində fərdi uçot sahəsində elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 3.** “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088; 2018, № 7 (I kitab), maddə 1382) aşağıdakı məzmunda 6.3-cü maddə əlavə edilsin:

“6.3. Bu qanunun 6.1.7-ci maddəsində nəzərdə tutulan birdəfəlik pul müavinətinin təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1481-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1481-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 2-ci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.2. “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-ci və 4.2-ci maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.3. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1361-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 13.1-1-ci maddə əlavə edilsin:

“13.1-1. Sığorta ödənişinin təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 2.** “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386) aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

**“Maddə 32-1. Əlilliyi olan şəxslərin sosial müdafiəsi və sosial təminatı sahələrində xidmətlərin elektron qaydada həyata keçirilməsi**

Əlilliyi olan şəxslərin sosial müdafiəsi və sosial təminatı sahələrində elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 3.** “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669) 8.0.15-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.0.16-cı maddə əlavə edilsin:

“8.0.16. məşğulluq sahəsində elektron xidmətlərin müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsi.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1483-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1483-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 13.1-1-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.2. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 32-1-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.3. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 8.0.16-cı maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanunu) 18-ci maddəsində on birinci abzas on ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

“sosial sığorta sahəsində elektron xidmətləri (məcburi sosial sığorta haqlarının hesablanması və ödənilməsi istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirir;”.

**Maddə 2.** “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1005; 2008, № 6, maddə 474, № 7, maddə 602; 2015, № 3, maddə 257; 2018, № 5, maddə 871) aşağıdakı məzmunda 6.3-cü maddə əlavə edilsin:

“6.3. Sosial yardımın alınması ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 3.** “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869) aşağıdakı məzmunda 10.1-1-ci maddə əlavə edilsin:

“Müavinətlərin təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 4.** “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 30.1-1-ci və 31.1-1-ci maddələr əlavə edilsin:

“30.1-1. Əmək pensiyalarının təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

31.1-1. Bu qanunun 31.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq əmək pensiyalarının avtomatlaşdırılmış qaydada təyinatı müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1482-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1482-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin on birinci abzasında “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.2. “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.3. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun 10.1-1-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.4. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 30.1-1-ci və 31.1-1-ci maddələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083; 2018, № 6, maddə 1189) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”nin 30-cu maddəsində “konsul” sözündən sonra “xaricdə yaşayan” sözləri, “18 yaşına çatmış vətəndaşlarının” sözlərindən sonra “müddətli” sözü əlavə edilsin və “hərbi komissarlıqlara” sözləri “müvafiq icra hakimiyyəti orqanına” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1500-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1500-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”nin 30-cu maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515) 166.2-ci maddəsində "valideynlər və ya onlardan biri, valideynlərin müəyyən səbəblərə görə (xəstə olduqda, öldükdə və sair) müraciət etməsi mümkün olmadıqda isə qohumlar, qonşular, uşağın doğulduğu tibb müəssisəsinin müdiriyyəti və yaxud başqa şəxslər" sözləri "uşağın valideyni, qəyyumu, himayəçisi və ya onların notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1469-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1469-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93, № 11, maddə 1255, № 12, maddə 1442; 2016, № 8, maddə 1367; 2017, № 6, maddə 1059; 2018, № 2, maddə 161, № 10, maddə 1970) 6-cı maddəsinə aşağıdakı məzmunda 2-1-ci bənd əlavə edilsin:

"2-1) 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı;".

**Maddə 2.** Bu qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1468-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1468-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1357-VQD, 1371-VQD, 1377-VQD nömrəli, 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1427-VQD, 1432-VQD nömrəli qanunları) 54.2-ci maddəsinə "205," rəqəmlərindən sonra "253-1.1.1 (yaşıllıqların kadastrının aparılmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların kadastr məlumatlarının təhrif edilməsinə münasibətdə)," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1516-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1516-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2019-cu il*

# Şəhid ailələrinin üzvlərinə yenə də güzəştlər ediləcək

"Azərbaycan son illər dinamik inkişaf yolundadır. Həyata keçirilən islahatlar insanların sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilib. Azərbaycanın hərtərəfli inkişafı nəzərdə tutulan əsas məqsəddir. Bu məqsəd də vətəndaşların daha yaxşı yaşamasına, onların təhlükəsizliyinin təmin olunmasına, potensiallarının Azərbaycanın inkişafına yönəldilməsinə istiqamətlənib".

Bu fikirləri Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova komitənin dünən keçirilən iclasında səsləndirdi. Azərbaycanda çox böyük iqtisadi layihələrin reallaşdırıldığını deyən Bahar Muradovanın sözlərinə görə, ölkəmizdə böyük yol qovşaqları, körpülər çəkilir, müxtəlif infrastruktur layihələri, ətraf mühitin sağlamlaşdırılması istiqamətində, enerji sahəsində mühüm işlər həyata keçirilir. Bu fəaliyyət sayəsində ətraf mühitə müsbət və mənfi təsirlər olur ki, bu da nəzərə alınmalı, onların qarşısının alınması, müsbət təsirlərinin genişləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilməlidir. Belə olan halda isə bəzi qanunlara dəyişiklik etmək zərurəti yaranır.

Prezident İlham Əliyevin Milli Məclisə göndərdiyi qanun layihələrində nəzərdə tutulan dəyişikliklər də bu məqsədi daşıyır. Komitənin gündəliyinə müzakirə olunması üçün 4 məsələ daxil edilmişdi.

İlk olaraq, iclasda "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edildi. Bildirildi ki, dəyişikliklər "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunun icrası məqsədilə edilir.

İkinci sənəd "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) idi. Qeyd edildi ki, dəyişiklik "Təhsil haqqında" qanuna uyğunlaşdırmaq məqsədi daşıyır.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Mühasibat uçotu haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsində nəzərdə tutulan düzəlişlər isə "Peşə təhsili haqqında" Qanuna uyğunlaşdırmaq məqsədi ilə həyata keçirilir.

Dəyişikliklərə əsasən, şəhid ailələrinin üzvlərinə yeni güzəştlər ediləcək. Belə ki, dövlət peşə təhsili müəssisələrində və elmi təşkilatlarda ödənişli formada təhsil alan şəhid ailəsi statusu almış ailənin üzvləri təhsil haqqını ödəməkdən azad ediləcəklər.

Bundan başqa, yüksək texniki peşə təhsilini bitirən məzunlara subbakalavr peşə-ixtisas dərəcəsi veriləcək. Layihəyə əsasən, peşə təhsili müəssisələrində tam orta təhsil üzrə təhsilverənlərin sertifikatlaşdırılması, digər işçilərin isə attestasiyası keçiriləcək.

Müzakirələrdə iştirak edən deputatlardan Hikmət Məmmədov, Elman Nəsirov, Sona Əliyeva, Tahir Kərimli, Yevda Abramov çıxış edərək qeyd etdilər ki, Prezident İlham Əliyev şəhid ailələrinə, müharibə veteranlarına, qaçqın və məcburi köçkün ailələrinə hər zaman xüsusi diqqət göstərib. Bu dəyişikliklər də həmin kateqoriyalara aid olan insanlara dövlətin göstərdiyi qayğının bariz nümunəsi, sosial siyasətin real təzahürüdür.

İclasda həmçinin "Kommersiya sirri haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsinə də təklif edilən texniki düzəlişlərə baxıldı və təklif edilən dəyişikliklər müsbət qiymətləndirildi.

Deputatlar müzakirəyə çıxarılan sənədləri Milli Məclisin plenar iclasına tövsiyə etdilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Aqrar sahədə qanunvericilik təkmilləşdirilir

*Milli Məclisin Aqrar siyasət komitəsinin martın 13-də keçirilən iclasında 6 məsələ müzakirə edildi. Komitənin sədri Eldar İbrahimovun məlumatından sonra, ilk olaraq, "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirə edildi.*

Bildirildi ki, dəyişikliklər fitosanitar nəzarəti və dövlət fitosanitar xidməti sahələrində fəaliyyət göstərən dövlət orqanlarının səlahiyyət bölgüsünün dəqiqləşdirilməsini nəzərdə tutur. Belə ki, dəyişikliyə əsasən, fitosanitar nəzarəti ilə dövlət fitosanitar xidməti fərqləndirilib. Fitosanitar nəzarəti sahəsində səlahiyyətlər Qida Təhlükəsizliyi Agentliyinə, dövlət fitosanitar xidməti sahəsində səlahiyyətlər isə Kənd Təsərrüfatı Nazirliyinə həvalə olunub.

Qısa müzakirədən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olundu.

İclasda daha sonra Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə qanunvericilik təşəbbüsü qaydasında bir zərfdə təqdim edilmiş "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" və "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələri birinci oxunuşda müzakirə olundu.

Məlumat verildi ki, qanun layihələri "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli Qanununun icrası məqsədilə hazırlanıb.

Müzakirələr zamanı Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, deputatlardan Novruzəli Aslanov, Cavanşir Paşazadə və digərləri qanun layihələri ilə bağlı fikirlərini bildirdilər. Yekunda müzakirə olunan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə edildi.

İclasda son olaraq "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət himayəsi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirə edildi. Qanun layihəsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 4 may 2018-ci il tarixli qanunun icrası məqsədilə hazırlanıb. Qanun layihəsinə görə, sahibkarlıq subyektləri "Mühasibat uçotu haqqında" qanuna uyğun olaraq mühasibat uçotunu aparmalı, maliyyə, habelə statistik hesabatlarını tərtib və təqdim etməlidirlər.

Qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ümumi təhsillə bağlı yeni qanun layihəsi tam hazırdır

Dünən Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirildi. İclasın gündəliyi təsdiq edildikdən sonra komitənin sədri İsa Həbibbəyli bir neçə sənədin müzakirəyə çıxarıldığını bildirdi.

İlk sənəd "Ümumi təhsil haqqında" qanun layihəsi (üçüncü oxunuş) idi. Qeyd edildi ki, təhsilin inkişafına xidmət edən, eləcə də ölkə reallığına əsaslanan bütün təklif və dəyişikliklər nəzərə alınaraq qanun layihəsi daha da təkmilləşdirilib.

İsa Həbibbəylinin sözlərinə görə, "Ümumi təhsil haqqında" qanun layihəsinin müzakirəsi zamanı repetitorluğun qarşısının alınması məsələsi qaldırıldığı üçün sənəddə bu öz əksini tapıb. Təklif olunan müddəalardan biri məktəblərdə müəllimlərin əməkhaqlarının artırılması ilə bağlıdır və bu, repetitorluğun qarşısının alınması üçün zəruridir. Həmçinin, təmayüllü siniflərin yaradılması da bu istiqamətdə ən düşünülmüş bir variantdır.

Müzakirələr zamanı çıxış edən komitənin sədr müavini Bəxtiyar Əliyev layihəni müsbət qiymətləndirdi və bunun təhsil siyasətinin daha məqsədyönlü şəkildə icrası üçün bir sənəd olduğunu bildirdi.

Deputat Sona Əliyeva qanun layihəsi ilə bağlı çıxışında ölkədəki autizmli uşaqların təhsili ilə bağlı məsələni qaldırdı. Qeyd etdi ki, Azərbaycanda 6 minə yaxın uşaq autizm xəstəliyindən əziyyət çəkir. Onun sözlərinə görə, autizm xəstəliyindən əziyyət çəkən uşaqların təhsil almaları ilə bağlı problemlər var. Onlar üçün dövlət hesabına heç bir reabilitasiya mərkəzi yoxdur.

Komitənin sədri İsa Həbibbəyli bildirdi ki, 6 minə yaxın autizmli uşağın heç də hamısı təhsildən kənarda qalmayıb, onların çoxuna evdə dərslər keçirilir. Azərbaycanda inklüziv təhsilin bütün mövcud imkanlarına hüquqi təminat verilir.

Daha sonra iclasda "Əmək Məcəlləsində, Vergi Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi, "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziya və icazələr haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), eləcə də "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də müzakirəyə çıxarıldı.

Bildirildi ki, qanun layihələrində nəzərdə tutulan dəyişikliklər "Peşə təhsili haqqında" və "Təhsil haqqında" qanun layihələrinə uyğunlaşdırma xarakteri daşıyır.

İsa Həbibbəyli söylədi ki, Azərbaycanda ən yaxın zamanlarda təhsil xidmətlərini həyata keçirən fiziki şəxslərin akkreditasiyası ilə bağlı yeni təkliflər paketi müzakirəyə təqdim ediləcək. Hazırda bu istiqamətdə işlər aparılır.

Gündəliyə daxil olan bütün məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# İnflyasiya yüksək deyil - 1,9 faiz

Dövlət Statistika Komitəsi cari ilin iki ayı üzrə ölkənin istehlak bazarı və xidmət sahəsindəki qiymətlər barədə məlumat açıqlayıb. Bildirilir ki, cari ilin yanvar-fevral aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 1,9, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları 1, qeyri-ərzaq malları 1,2, əhaliyə göstərilən ödənişli xidmətlər 3,5 faiz bahalaşmışdır.

Ötən ay isə yanvara nisbətən istehlak məhsullarının qiymətləri 0,6, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,1, qeyri-ərzaq mallarının qiymətləri 0,1, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,2 faiz artmışdır.

Ay ərzində düyünün, unun, mannı yarmasının, makaron məmulatlarının, qoyun və toyuq ətinin, kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsulları və pendirin, bitki yağlarının, limonun, naringinin, portağalın, bananın, almanın, heyvanın, narın, kivinin, kələmin, göyərtinin, xiyarın, pomidorun, bibərin, badımcanın, kartofun, soğanın, sarımsağın, şəkər və şəkər tozunun, qəhvə, çay və kakaonun, tütün məmulatlarının, spirtli içkilərin qiymətlərində bahalaşma, qarabaşaq yarmasının, yumurtanın, kərə yağının, yerkökünün, çuğundurun, qiymətlərində isə ucuzlaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Fevralda qeyri-ərzaq mallarından ayaqqabıların, xalça və digər döşəmə örtüklərinin, mebel və ev əşyalarının, velosipedlərin, mobil telefonların, televizorların, zərgərlik məmulatlarının, dəftərxana ləvazimatlarının, taxtanın, sementin, kərpicin, nitro, sulu və yağlı boyaların qiymətlərində bahalaşma, geyimin, soyuducuların, paltaryuyan maşınların, tozsoranların, noutbuk və planşet tipli kömpüterlərin qiymətlərində ucuzlaşma qeydə alınmış, digər qeyri-ərzaq mallarının qiymətlərində ciddi dəyişikliklər olmamışdır.

Ödənişli xidmətlərə gəldikdə, keçən ay yanvara nisbətən mənzillərin icarə haqqı, paltarların təmizlənməsi, təmiri və kirayəsi, avtomobillərin təmiri, tibbi və stomatoloji xidmətlərin, ölkə daxilində istirahət turlarının qiymətləri bahalaşmış, ölkədən kənara istirahət turlarının, dəmiryolu və hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin qiymətləri ucuzlaşmışdır. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər müşahidə edilməmişdir.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri: *“Müasir diplomatiyamızda yeni səhifə”*

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.**

**Səfərin əhəmiyyətini, səciyyəvi məqamlarını bir daha diqqətə çatdıraraq, bununla bağlı fikir və mülahizələri oxucularla bölüşməyi lazım bildik.**



Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə təsir göstərdiyi sirr deyil. Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırlar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. “Total” şirkəti “Əsrin müqaviləsi”nin başlanğıcından bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strasburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirildi, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı... Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulanırdı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər. Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə birinci xanım Mehriban Əliyeva Fransa Respublikasının “Şərəf Legionunun Zabiti” dövlət ordeni ilə təltif olunub.

Beləliklə, Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin antiazərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksəksəviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzuedilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksəksəviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı.

Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksəkvəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bir neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman-Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksəksəviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehriban xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqəti çəkir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir. Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik.

Məsələn, “Azərbaycan Mərkəzi Bankı ilə “Rotchild & Cie” bankı arasında strateji əməkdaşlıq haqqında Saziş” imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında “Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya”, “Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi” və “Xocasən” deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə” ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir.

“Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.

Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, “Xocasən” deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi. Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. “Suez Groupe” şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və su itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz (“Azərsu” ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində “Rothschild Global Financial Advisory” şirkətinin rəhbəri David dö Rotşild ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikiblər.

“Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər”, - deyən “Rothschild Global Financial Advisory” şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnunluqla qəbul etdi.

Fransa Senatının sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Səhiyyə sahəsinə gəldikdə, Fransa Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin onkoloji mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına, müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron ilə görüşdə müzakirə edildi. Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Risterin müşayiəti ilə Parisdəki Orsey muzeyini ziyarət etdi. Bu, bir daha təsdiqlədi ki, mədəniyyət sahəsi Azərbaycan-Fransa əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Fransada keçirilən bütün görüşlərdə Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi də xüsusi diqqət yetirilən mövzulardan idi. Birinci vitse-prezident Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini fransız hakimiyyətinin yüksək dairələrinə bir daha çatdırmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi nizamlanma prosesində Fransanın məsuliyyətinin xatırladılması üçün səfərin yaratdığı bütün imkanlardan istifadə etdi.

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar. Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Aİ-yə inteqrasiyasında müstəsna rol oynayacaq.

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti***

# Fransada Azərbaycana yüksək ehtiram var

## Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri mövcud münasibətlərin dərinləşməsinə və yeni əməkdaşlıq əlaqələrinin yaranmasına xidmət edəcək

*Əvvəli 1-ci səh.*

Fransız şirkətləri Azərbaycanın kosmos sənayesinin yaradılmasında da iştirak ediblər. Azərbaycan ilə Fransa şirkətləri arasında bağlanan iqtisadi müqavilələrin dəyəri 2 milyard dolları ötür. Daha bir mühüm məqam ondan ibarətdir ki, Azərbaycan Fransanın Cənubi Qafqazdakı əsas ticarət tərəfdaşıdır. Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyası da əlaqələrin inkişafına töhfələr verir.

İki ölkə arasında humanitar sahədə də əlaqələr daim genişlənir. Azərbaycan-Fransız Universiteti 2014-cü ildə Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə yaradılan və uğurla davam edən layihədir. Bakı Fransız Liseyi isə bağça, ibtidai və yuxarı siniflərdən ibarət təhsil müəssisəsidir. Bundan başqa, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi fəaliyyət göstərir.

### Əlaqələrin inkişafında Mehriban Əliyevanın xidmətləri böyükdür

İki ölkə arasındakı mədəni əlaqələr son illərdə sürətlə inkişaf edib və bu sahədə Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri böyükdür. Ümumiyyətlə, Mehriban Əliyeva Fransanın siyasi, iqtisadi və mədəni həyatı üçün dost kimi qəbul edilən siyasi və ictimai xadimdir. Çünki son 15 ildə Fransanın müxtəlif şəhərlərində mütəmadi olaraq Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən tədbirlər Mehriban Əliyevanı bu ölkənin siyasi, mədəni və iqtisadi elitasına daha yaxından tanıdıb. Ümumiyyətlə isə Azərbaycanın birinci xanımının ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin mühüm hissəsi Parisin mədəni həyatı ilə bağlıdır. 2012-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzi bu sahədə işlərin daha da gücləndirilməsinə xidmət edir.

Azərbaycan-Fransa mədəni əlaqələrindən danışdıqda Heydər Əliyev Fondunun bu ölkədə həyata keçirdiyi tədbirlər xüsusi diqqət çəkir. Məhz Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdə Versal sarayının parkındakı ümumbəşəri abidələr, Strasburqun Kafedral kilsəsi, Fransanın digər rayonlarında tarixi və memarlıq abidələri bərpa olunub, Luvr muzeyində İslam İncəsənəti Departamenti yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə Fransanın paytaxtında və onlarla şəhərində Qafqazın mirvarisi olan Azərbaycanın mədəniyyətini təmsil edən sərgilər, konsertlər, konfranslar keçirilib. Miluz şəhərinin Yuxarı Alzas Universitetinin filologiya fakültəsinin konfrans zalı Heydər Əliyev Fondunun dəstəyi ilə tamamilə yenidən qurulub və zala Məhsəti Gəncəvinin adı verilib. Ümumiyyətlə, Fondun həm mədəni əlaqələrin inkişafı, həm də Azərbaycanın təbliği ilə bağlı həyata keçirdiyi bu cür tədbirlər çoxşaxəlidir.

Mehriban Əliyeva Milli Məclisin deputatı olarkən Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərlik edib. İşçi qrup Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycan-Fransa əlaqələrinin daha da inkişafına böyük töhfələr verib. Onu da xatırladaq ki, Mehriban Əliyeva Fransa ilə münasibətlərdə göstərdiyi xidmətlərinə görə bu ölkənin Prezidentinin sərəncamı ilə “Şərəf Legionunun Zabiti” ordeni ilə təltif edilib.

Azərbaycanın Birinci vitse-prezidentinin Fransaya son səfəri də əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu səfər zamanı xanım Mehriban Əliyevanın Baş nazir Eduard Filip, Senatın sədri Jerar Larşen, Milli Assambleyanın sədri Rişar Ferran, Parisdə “Rothschild Global Financial Advisory” şirkətinin rəhbəri David dö Rotşild, “Suez Groupe” şirkətinin vitse-prezidenti Erik Qebali, Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat, Fransanın birinci xanımı Brijit Makron, sabiq prezident Nikola Sarkozi ilə görüşləri göstərir ki, bu səfər əməkdaşlıq tellərinin daha da möhkəmlənməsinə xidmət edəcək.

Fransanın Baş naziri Eduard Filip Mehriban Əliyeva ilə görüşdə siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu bildirib. Prezident İlham Əliyevin ötən ilin iyulunda Fransaya səfərinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayan Baş nazir Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini deyib. Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını qeyd edərək onların Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğulayıb.

Fransa Senatının sədri Jerar Larşen də Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verdiyini, onun mədəniyyət, elm və təhsil sahələrində böyük xidmətlərinin olduğunu xüsusi qeyd edib.

Səfər zamanı “Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində “Şimal-Cənub nəqliyyat dəhlizi”nin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya”, “Azərbaycan Mərkəzi Bankı ilə “Rotchild & Cie” Bankı arasında Strateji Əməkdaşlıq Sazişi”, “Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi” və “Xocasən” deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə” imzalanıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfərinin gündəliyi kifayət qədər zəngindir. Bu səfər iki ölkə arasındakı mövcud münasibətlərin dərinləşməsinə və yeni əməkdaşlıq əlaqələrinin formalaşmasına xidmət edəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Avrasiyanın tranzit və logistik mərkəzi

## Şimaldan Cənuba, Şərqdən Qərbə ən qısa yollar Azərbaycandan keçir

*Əvvəli 1-ci səh.*

Ötən il “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Bakı-Yalama və Bakı-Astara dəmir yolunun yenidən qurulması istiqamətində görülən işlər “Şimal-Cənub” dəhlizi üçün çox önəmlidir.

Ümumiyyətlə, “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” iştirakçı dövlətlərlə yanaşı, bütün regionun iqtisadi inkişafına böyük təkan verəcək. Beynəlxalq əhəmiyyət daşıyan bu layihənin aktiv fəaliyyətə başlamasının nəticəsində Asiya ilə Avropa qitələri arasında nəqliyyat “körpüsü” yaranacaq.

### Azərbaycan və İranın dəmir yol sistemləri birləşir

Martın 6-da İranda Qəzvin-Rəşt dəmir yolunun açılışı və bu mərasimdə Azərbaycan nümayəndə heyətinin iştirakı da ölkəmizin “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi”nə verdiyi böyük önəmin təzahürüdür. Rəşt-Astara dəmir yolu beynəlxalq dəhlizin əsas tərkib hissələrindəndir və bu layihə üzərində Azərbaycanla İranın birgə fəaliyyəti iki ölkə arasındakı dostluğun göstəricisidir.

Qəzvin-Rəşt dəmir yolunun uzunluğu 164 kilometrdir. Dəmir yolu xətti üzrə körpülər, tunellər və digər qurğular inşa olunub.

Açılış mərasimində çıxış edən İran Prezidenti Həsən Ruhani nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin hər iki ölkənin dövlət başçılarının daim diqqətində olduğunu vurğulayıb və bu dəhlizin tərkib hissəsi olan Qəzvin-Rəşt dəmir yolunun önəmini qeyd edib. İran Prezidenti bildirib ki, Qəzvin-Rəşt dəmir yolu yalnız İranın və Azərbaycanın deyil, eyni zamanda, Rusiya və Şimali Avropa ölkələrinin də dəmir yolları sistemlərini birləşdirəcək. Dəmir yolu yaxın gələcəkdə Fars körfəzi ilə Şimali Avropa dövlətləri arasında “körpü” rolunu oynayacaq. Fars körfəzinə daxil olan yüklər Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu ilə İran və Azərbaycan ərazisindən keçməklə Avropaya, eləcə də əks istiqamətə daşınacaq. Bu isə xalqların rifah halının yüksəlməsinə, dövlətlərin isə əlavə iqtisadi dividendlər qazanmasına səbəb olacaq.

### Yüklərin çatdırılma müddəti 40, nəqliyyat xərcləri isə 30 faiz azalacaq

Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi”nin ona görə əsas hissəsi hesab olunur ki, bu yolla yüklərin çatdırılma müddəti 40, nəqliyyat xərcləri isə 30 faiz azalır.

Bu isə iş adamları və böyük şirkətləri maraqlandıran məsələdir. Ötən il bu nəqliyyat dəhlizinə daxil olan dəniz və avtomobil yolları ilə 17 milyon ton yükün daşınması təsadüfi deyil. Bu yüklərin bir qismi tranzit olaraq Azərbaycan ərazisindən keçib. Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu hazır olandan sonra isə bu göstərici 30 milyon tona qədər yüksələcək. Asiyadan yüklər yalnız İran və Rusiyaya deyil, birbaşa Avropaya daşınacaq.

### Azərbaycan İrana 500 milyon dollar güzəştli kredit verib

Əvvəlki marşrutdan fərqli olaraq İran və Azərbaycan ərazisindən daşınan tranzit yüklər təkrar boşaldılıb yüklənməyə məruz qalmayacaq. Fars körfəzi və Cənub-Şərqi Asiya ölkələrindən Bəndər-Abbas limanına daxil olan yüklər elə limandaca qatara yüklənəcək və birbaşa Avropaya daşınacaq. Bu isə rüsum və vergilərin azalmasına, vaxtın qənaət olunmasına imkan verəcək.

Artıq Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu istifadəyə verilib. Rəşt-Astara dəmir yolunun inşası 2 il ərzində yekunlaşacaq. Azərbaycan bu yolun inşası üçün İrana 500 milyon dollar güzəştli kredit verib.

Beləliklə, yaxın gələcəkdə Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu tam hazır vəziyyətə gətiriləcək.

### Ötən il ölkə ərazisindən 9,3 milyon ton tranzit yük daşınıb

Qəzvin-Rəşt dəmir yolunun fəaliyyətə başlaması təkcə “Şimal-Cənub” deyil, eyni zamanda, “Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizi”nin inkişafı istiqamətində atılmış çox mühüm addımdır. Bütün bunlar daşınan yüklərin həcminin artırılmasını təmin etməklə Azərbaycanın və İran İslam Respublikasının nəqliyyat-tranzit və ticarət-iqtisadi potensialının gücləndirilməsinə böyük töhfə verəcək.

Əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə Azərbaycan Prezidentinin 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə yaradılan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Ötən il ölkə ərazisindən 9,3 milyon ton tranzit yük daşınıb. Həmçinin “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi” ilə daşınan yüklərin həcmində 10 faiz artım müşahidə olunub, 158 min ton yük daşınıb.

### Sistemli islahatlar möhtəşəm uğurlara doğru aparır

Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri, həyata keçirdiyi uğurlu siyasət Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır. Yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi qarşıya qoyulmuş hədəfə - Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparır.

Əminliklə demək olar ki, dövlət başçısının Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verir.

Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Bir kəmər, bir yol” təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı” mövzusunda keçirilən sessiyada Prezident İlham Əliyev Azərbaycanın tranzit mövqeyini belə dəyərləndirmişdi: “Azərbaycan “Şərq-Qərb nəqliyyat dəhlizi” təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir”.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan ərazisindən keçən dəhlizlərin fəaliyyətinin təkmilləşdirilməsi dəniz və dəmir yolu nəqliyyatı üçün uzunmüddətli etibarlı bazarın formalaşmasında, ticarət əlaqələrinin genişləndirilməsində, yükdaşımaları ilə bağlı infrastruktur sahələrinin inkişafında faydalı olacaq.

Nəqliyyat dəhlizlərinin potensialından səmərəli istifadə gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisinin artması ilə nəticələnəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Prezident sərəncamı bizi yeni uğurlara səsləyir



Lənkəranda peşəkar teatrın tarixi XIX əsrin sonlarına təsadüf edir. Tədqiqatlar nəticəsində bu fakt təsdiqini tapmış və Milli Elmlər Akademiyasının teatr bölməsinin təqdimatına əsasən, Mədəniyyət Nazirliyi Lənkəran Dövlət Dram Teatrının yaşının 1891-ci ilin yanvarında Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" əsəri əsasında səhnələşdirilmiş "Oddan alova" adlı komediyası ilə təsdiqləndiyi barədə qərar çıxarmışdır.

Lənkəranda işləmək, burada maarif və mədəniyyət toxumunu yaymaq bir çox sənətkarların həyat amalı olub. Azərbaycanın görkəmli bəstəkarı Müslüm Maqomayev 1905-ci ilin sentyabr ayından Lənkəranda müəllimlik fəaliyyətinə başlayaraq, burada dördsinifli məktəbdə coğrafiya və təbiət fənlərini tədris edib. Teatrın Lənkəranda təşəkkül tapmasında SSRİ xalq artisti, görkəmli səhnə ustası Sidqi Ruhullanın da böyük köməyi olub. 1912-ci ildə Lənkərana gələn S.Ruhulla burada teatr heyəti yaratmaq istəyən həvəskarlarla "Bəxtsiz cavan", "Nadir şah" faciələrini, N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" və s. əsərləri səhnələşdirib.

Yerli ziyalılardan Teymur Şahverdiyevin "Altı rəfat", "Həqiqi röya" adlı əsərlərinin 1923-cü ildə səhnələşdirilməsi də böyük əks-səda doğurub. Hər iki əsər yeni yaradılan Hüseyn Ərəblinski adına Xalq Teatrı artistlərinin və yerli ziyalıların qüvvəsi ilə hazırlanıb. Xalq teatrı təxminən 10 ildən artıq fəaliyyət göstərib, sonralar yaradılan peşəkar teatr üçün zəmin yaradıb. Azərbaycanın tanınmış artistləri və müğənnilərindən Həqiqət Rzayeva, Münəvvər Kələntərli, Haşım Kələntərli, İsmayıl Talışinski, Cahanxanım Talışinskaya kimi məşhur sənətkarlar da ilk addımlarını Lənkəran teatrının səhnəsində atıblar.

Lənkəran Dövlət Dram Teatrı 1934-cü ilin dekabrından 1949-cu ilə kimi səmərəli fəaliyyət göstərib. Böyük Vətən müharibəsi illərində müvəffəqiyyətlərə görə teatrın direktoru və rejissoru Qəni Vəliyev və aktyor Kamil Nəcəfov Azərbaycan SSR-in "Əməkdar artisti" fəxri adına layiq görülüb, bir qrup aktyor Ali Sovetin fəxri fərmanları ilə təltif olunub. Lənkəranlıların teatr sənətinə sonsuz məhəbbəti nəticəsində 1959-cu ilin dekabr ayında rayonda yenidən H.Ərəblinski adına Xalq Teatrı təşkil edilib. Cavan yaradıcı qüvvələrlə müntəzəm iş aparmaq, yeni istedadları axtarıb tapmaq, repertuarını həyatla səsləşən əsərlərlə zənginləşdirmək və beləliklə, xalqa mədəni xidmət göstərmək kimi vəzifələr teatrın əsas fəaliyyət proqramı olub.

Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə 1973-cü il dekabrın 6-da Lənkəran Dövlət Dram Teatrı uzunmüddətli fasilədən sonra yenidən fəaliyyətə başlayıb.

Yarandığı ilk vaxtlardan sağlam mənəvi prinsiplər üzərində təşəkkül tapan teatr ötən 46 il ərzində 250-dən çox əsərə səhnə həyatı verib. Teatr nəinki respublikamızda, eyni zamanda bir sıra xarici ölkələrdə, o cümlədən Özbəkistanda, Gürcüstanda qastrol səfərlərində olub, Türkiyənin İstanbul, Ankara, Dənizli və Konya şəhərlərində, İran İslam Respublikasında keçirilən beynəlxalq festivallarda uğurlar qazanıb. Teatrın yaradıcı kollektivinin hazırladığı Üzeyir Hacıbəylinin "Olanlardan-keçənlərdən" və Cəlil Məmmədquluzadənin "Ölülər" tamaşaları Azərbaycan Dövlət Televiziyasının qızıl fonduna daxil edilib.

2004-cü ildə Lənkəran Dövlət Dram Teatrının binası əsaslı şəkildə təmir edilərək yenidən qurulub. Həmin il noyabr ayının 9-da Lənkəranda səfərdə olan Prezident İlham Əliyev teatrda olub və burada görülən işləri yüksək qiymətləndirib.

Hazırda teatrda 2 xalq artisti, 3 əməkdar artist, 1 əməkdar incəsənət xadimi, həmçinin yüksək ada və şərəfə layiq olan onlarca sənət fədaisi çalışır.

Tamaşaçılarla əlaqələri möhkəmləndirmək üçün Lənkəran Şəhər Təhsil Şöbəsi ilə birlikdə "Məktəb və teatr" layihəsinə start verilib. Layihəyə əsasən yaradıcı heyətlə məktəblərə gedir, teatrı təbliğ edir, gənc kadrların cəlb olunması məsələsini qaldırır. Qonşu Astara, Lerik, Cəlilabad, Biləsuvar və Yardımlı rayonlarında tamaşalar göstərir, görüşlər keçirilir.

Qonşu İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş 34-cü Beynəlxalq Fəcr Teatr Festivalında, iki dəfə bu ölkənin Həmədan şəhərində keçirilmiş Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında da Azərbaycanı təmsil etmişik. Qazaxıstan və Türkiyə respublikaları ilə də əməkdaşlıq barədə düşünürük. 2018-ci ildə Qazaxıstanın Aktau Dram Teatrının rəhbərliyi ilə görüşərək qarşılıqlı əsərlərin hazırlanması, səfərlərin təşkili ilə əlaqədar protokol imzalamışıq.

Bu günlərdə iki tamaşanın premyerasını etdik. Bunlardan biri - qırğız dramaturqu Mar Bayciyevin "Şənbə axşamı" tamaşası böyüklər üçün nəzərdə tutulub. İkinci səhnə əsəri - T.Abdullayevin "Tilsimlənmiş qız" tamaşası isə yaz tətili günlərində məktəblilərə töhfəmiz olacaq. Cari ildə C.Cabbarlının 120 illik yubileyi münasibətilə ədibin "Vəfalı Səriyyə", serb yazıçısı Miodraq Bulatoviçin "Qodo gəldi", Vaqif Əlixanlının "Dənizə baxan pəncərə", Əli Əmirlinin "Ünvansız qatar" əsərlərini də səhnələşdirməyi nəzərdə tutmuşuq.

Ölkəmizdə mədəniyyətə, incəsənətə, o cümlədən teatr sənətinə qayğı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən yüksək səviyyədə davam etdirilir. Martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə keçirilən görüşdə bunun bir daha şahidi olduq. Bu görüş göstərdi ki, Azərbaycan dövləti mədəniyyətimizin qorunub saxlanılması, inkişaf etdirilməsi, gələcək nəsillərə çatdırılması və xüsusən beynəlxalq aləmdə tanıdılması məsələlərində daim sənət adamlarının və mədəniyyət müəssisələrinin himayədarıdır.

Görüşdə dövlət başçısı mədəniyyət sahəsində çalışan insanların çıxışına diqqətlə qulaq asdı, qaldırılan məsələlərə münasibət bildirdi, tədbir görülməsi üçün tövsiyə və tapşırıqlarını verdi. Mədəniyyət işçiləri bu görüşü böyük razılıqla qarşıladılar. Ölkə rəhbərinin teatr işçilərinin aylıq əməkhaqlarının artırılması barədə təkliflərin hazırlanması və əhəmiyyətli dərəcədə artırılması ilə bağlı müvafiq qurumlara verdiyi göstəriş, həmçinin "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart 2019-cu il tarixli sərəncamı hədsiz sevincimizə səbəb oldu. Həmin sərəncamla bizim teatra da 100 min manat ayrılıb. Bu vəsaitlə teatrın maddi-texniki bazasını gücləndirə biləcəyik.

Prezidentin sərəncamı bizi yeni uğurlara səslədi. Dövlət qayğısının müqabilində biz də çalışacağıq ki, günün tələblərinə cavab verən yüksəksəviyyəli tamaşalar hazırlayaq.

***Tofiq HEYDƏROV,***
***Lənkəran Dövlət Dram Teatrının direktoru***





# Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın siması gündən-günə gözəlləşir

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində Nəsimi rayonu, R.Məmmədov küçəsi 23, 25 və 27 nömrəli evlərin əhatə etdiyi, ümumi sahəsi 4100 kvadratmetr olan ərazidə abadlaşdırılan həyət sakinlərin istifadəsinə verilib.***







"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütunu olan yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Layihə çərçivəsində abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı naminə əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirməsi məqsədilə idman qurğuları, şahmat və uşaqlar üçün oyun meydançaları, oturacaqlar, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi, sağlamlıqlarının möhkəmləndirilməsinə, asudə vaxtlarının səmərəli keçirilməsinə, o cümlədən onlarda idmanla məşğulolma vərdişinin yaranmasına nail olmaqdır.

Sakinlərin istəkləri nəzərə alınaraq, burada 4 ədəd yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq, 100-dən artıq müxtəlif növ ağac əkilib və ərazidə yaşıllıq zolağı salınıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatının 2019-cu il üçün xərclər smetasında və 2019-cu il üçün dövlət büdcəsinin "Sosial təminat" köməkçi bölməsinin 6.2.4 "Əlillərlə və ya sağlamlıq imkanları məhdud uşaqlarla bağlı sosial təminat tədbirləri" paraqrafında 221200 "mətbəə xərcləri" maddəsi üzrə mətbəə və çap məhsullarının açıq tender üsulu ilə satın alınmasını**

***elan edir***

**Tender 2 LOT üzrə keçirilir.**

**Tenderin predmeti:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları və tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək mətbəə və çap məhsullarının satın alınması.

**LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək mətbəə və çap məhsullarının satın alınması.

**LOT 2:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək mətbəə və çap məhsullarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərbadi, 80 (əlaqələndirici şəxs Tender komissiyası **012-5302903**) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər bir LOT üzrə - 300.00 manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**m/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**S.W.I.F.T. : CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30 bank günü** qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30 bank günü**);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **23 aprel 2019-ci il saat 17.00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **01 may 2019-cu il saat 17.00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərbadi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 may 2019-cu il saat 15.00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərbadi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində 2019-cu il üçün dəri və yapışdırıcı vasitələrin satın alması üçün açıq tender üsulu ilə satınalma

***elan edir***

**Tender 1 LOT üzrə keçirilir.**

**Tenderin predmeti:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində 2019-cu il üçün dəri və yapışdırıcı vasitələrin satın alması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Əhmədli qəsəbəsi, S.Ə.Şirvani küçəsi, 159 (əlaqələndirici şəxs Tender komissiyası (+99412)376-70-58) ünvanından ala bilərlər.

**İştirak haqqı : 300.00 manat**
**Protez Ortopedik Bərpa Mərkəzi**
**VÖEN: 1000341661**
**Bank: ABB Xətai filialı**
**H/h: AZ81IBAZ38060019449725614215**
**m/h: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**Kod: 805625**
**S.W.I.F.T. : İBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30 bank günü** qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30 bank günü**);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **23 aprel 2019-cu il tarixdə saat 17:00-dək**, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **01 may 2019-cu il saat 17.00-dək** Bakı şəhəri, Yasamal rayonu, Əhmədli qəsəbəsi, S.Ə.Şirvani küçəsi, 159 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 may 2019-cu il saat 15.00-da** Bakı şəhəri, Əhmədli qəsəbəsi, S.Ə.Şirvani küçəsi, 159 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycanlı alimin kitabı Moskvada 40 il sonra yenidən nəşr olunub

AMEA İdarəetmə Sistemləri İnstitutunun laboratoriya rəhbəri R.Ə.Qarayevin "Boru kəmərlərinin avtomatik idarəetmə sistemlərində informasiyanın toplanması və ötürülməsi" ("Сбор и передача информации в АСУ трубопроводами") kitabı 40 ilə yaxın bir müddətdən sonra Moskvada yenidən nəşr olunmuşdur. Bu kitab Moskvada ilk dəfə "Energiya" nəşriyyatı tərəfindən 1975-ci ildə buraxılmışdı.

Kitabda magistral boru kəmərlərinin (neft boru kəmərləri, hasilat boru kəmərləri, qaz boru kəmərləri) idarəetmə sistemlərində telemexanik kanalların etibarlılığı və səs-küy toxunulmazlığı problemi nəzərdən keçirilir.

Müəllifin əldə etdiyi nəticələr SSRİ-də ilk dəfə ÜDS-64 və TM-100 "Trassa" boru kəmərləri üçün telemexanik komplekslərin işlənməsində istifadə olunmuşdur. Texnika üzrə fəlsəfə doktoru Robert Qarayev bu komplekslərin aparıcı tədqiqatçılarından biridir. Tədqiqatda azərbaycanlı alimlərlə yanaşı, Moskva, Sankt-Peterburq və "Serck Controls" ingilis şirkətindən olan mütəxəssislər iştirak etmişlər.

"Сбор и передача информасии в АСУ трубопроводами" kitabı 40 ildən sonra "EE-Media", "Let Me Print" və "Книга по требованию" nəşriyyatları tərəfindən Moskvada təkrar nəşr olunmuşdur.

Hazırda kitab dissertasiya işlərində və Rusiya, Belarus, Ukrayna ali məktəblərinin metodik təlimatlarında istifadə olunur, ali məktəblərin kitabxana fondlarına daxil edilib.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dəftərxana və təsərrüfat mallarının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 29 mart 2019-cu il saat 15:00 tarixədək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova, 85**

***Tender komissiyası***

## Azərbaycan Dövlət Aqrar Universiteti açıq tender elan edir

LOT 1 - 2019-cu ildə 225413 "Digər alışlar və xidmətlər" maddəsi ilə nəzərdə tutulmuş vəsaitdən heyvanların saxlanması ücün yem tədarükü və alınması

LOT 2 - 311220 "Digər maşın və avadanlıqlar" maddəsi ilə nəzərdə tutulmuş vəsaitdən avadanlığın satın alınması

LOT 3 - 225411 "İnventar alınması" maddəsi ilə nəzərdə tutulmuş vəsaitdən inventarın satın alınması

Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 300 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Gəncə şəhəri, Atatürk prospekti, 450, Azərbaycan Dövlət Aqrar Universitetindən ala bilərlər (əlaqələndirici şəxs: Bəşirova Səfurə, telefon: 256-99-46).

Bankın adı:
"Kapital Bank" ASC-nin Gəncə filialı
KOD: 200275
VÖEN: 9900003611
M/H AZ37NABZ01350100000000001944
SWIFT BİK AIIBAZ2X
AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ
H/H AZ68AIIB38070019440136714127
VÖEN 2300314671

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, kadr potensialına,maliyyə və texniki imkanlara.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvanı, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı və soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır) tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirməyə buraxılmır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı:
- iddiaçının son hesabat dövründəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma N1 və N2);
- anoloji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;
- iddiaçının tam adı,hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

İddiacılar tender təkliflərini möhürlənmiş,imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 29 aprel 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş,ikiqat zərfdə 07 may 2019-cu il saat 17:00-a qədər Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 08 may 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

*Tender komissiyası*




# Ölkəmizi tanıyaq




# Maarifləndirici tur-aksiyalara start verilir

## Bu dəfə 3370 məktəbli iştirak edəcək

Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 10 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 23 min 444 nəfər iştirak edib.

Martın 15-18 və 23-26 tarixlərini əhatə edəcək növbəti 11-ci tur-aksiyada isə 6 istiqamət üzrə Naxçıvan MR-dən, 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3370 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 26 mindən çox olacaq.

Tur-aksiyanın marşrutunda paytaxt Bakını xüsusi qeyd etmək lazımdır. Bu gün Bakı öz inkişafı, füsunkar gözəlliyi ilə dünyanın meqapolislərindən birinə çevrilib. Bakı artıq qədimliklə müasirliyin harmoniyasının simvoludur. Əsrlərin yadigarı olan Qız qalası Bakının qədimlik, möhtəşəm "Alov qüllələri", dünya memarlığının nadir incilərindən olan Heydər Əliyev Mərkəzi Azərbaycan paytaxtının müasirlik rəmzləridir. Son illər Bakı çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Mədəniyyətlərarası dialoq, beynəlxalq humanitar forumlar, idman yarışları, musiqi festivalları Bakını geniş coğrafiyada tanıdıb. Bakının adı müasir tariximizə beynəlxalq humanitar forumların, "Eurovision-2012" musiqi yarışmasının, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, "Bakı-2015" I Avropa Oyunlarının, "Formula 1" Avropa Qran-Prisinin, Dünya Şahmat Olimpiadasının, IV İslam Həmrəyliyi Oyunlarının evsahibi kimi daxil olub. Tur-aksiya çərçivəsində Bakı şəhərinə səfər edəcək naxçıvanlı məktəblilər bu mühüm tədbirlər barədə ətraflı məlumat alacaq, Azərbaycan paytaxtının keçdiyi inkişaf yolu ilə tanış olacaq, tarixi və müasir yerlərə ekskursiyalar edəcəklər.

Beşminillik şəhər mədəniyyəti ənənələrinə malik olan qədim Naxçıvan Azərbaycanın, bütövlükdə Qafqazın və dünyanın sivilizasiya xəzinəsinə dəyərli töhfələr verib. Bir vaxtlar əzəmətli keçmişini yalnız tarixi abidələri ilə xatırladan Naxçıvan bu gün hamını heyran qoyan inkişaf diyarına çevrilib. İndi Naxçıvanı, sözün həqiqi mənasında, Azərbaycanın inkişaf dinamikasının əyani göstəricisi hesab etmək olar. Naxçıvanda inkişafın miqyası illərlə, aylarla deyil, günlərlə ölçülür. Təsadüfi deyil ki, Naxçıvan şəhəri 2018-ci il üçün islam mədəniyyətinin, həmçinin respublikamızın "Gənclər paytaxtı" elan olunmuşdu. Bütün bu uğurları Naxçıvan Muxtar Respublikası Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaranmış blokada şəraitində əldə edib. Bu gözəl diyarda inkişafın təməli ulu öndər Heydər Əliyevin Naxçıvan Ali Məclisinin Sədri olduğu dövrdə qoyulub və Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində daha da zənginləşib. Naxçıvan istiqaməti üzrə səfər edəcək tur-aksiya iştirakçıları blokada şəraitində intibah yaradan müasir Naxçıvanla tanış olacaq, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqqında ətraflı məlumat alacaqlar. Eyni zamanda, məktəblilər Naxçıvanda bu günədək qorunub saxlanılan və bərpa olunan Möminəxatun, Nuh peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı və digər qədim abidələr, M.T.Sidqinin, M.S.Ordubadinin və Y.Məmmədəliyevin ev-muzeyləri ilə tanış olacaqlar. Şagirdlərə həmçinin Naxçıvanın "İslam Mədəniyyətinin Paytaxtı - 2018" missiyasını uğurla yerinə yetirməsi barədə də ətraflı məlumatlar veriləcək.

Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar. Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olması, bu hadisənin Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev tərəfindən həmin əlamətdar tarixin qeyd olunması ilə bağlı sərəncam imzalanması şagirdlərin diqqətinə çatdırılacaq.

Məktəblilər Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin sosial-iqtisadi və mədəni həyatı ilə yanaşı, Nizami yurdunun yeni xəritəsində əksini tapmış müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, mədəniyyət ocaqları, yaraşıqlı prospektləri, park və xiyabanları ilə ətraflı tanış olacaqlar. Tur-aksiya iştirakçılarının Gəncə şəhərinin tarixi məkanlarına - Cavad xan məqbərəsinə, Cümə məscidinə, Şah Abbas məscidinə, Çökək hamama, Xan bağına, Qədim Qala divarlarına, "İmamzadə" kompleksinə, Comərd Qəssab türbəsinə, Nizami Gəncəvi məqbərəsinə, həmçinin Gəncə Dövlət Filarmoniyasının yeni binasına və Gəncə bulvarına, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri"nə, "Abidələr" parkına, Alman kilsəsinə, Şəmkir Aqroparkına, Göygöl rayonunda Alman kirxasına, sonuncu alman Viktor Klaynın ev-muzeyinə, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiyaları təşkil ediləcək.

Məktəblilər bu marşrut üzrə Tovuzda Heydər Əliyev Parkı, Heydər Əliyev Mərkəzi, "Dairəvi qala" və eramızdan əvvəl VI minilliyə aid Göytəpə abidəsi ilə tanış olacaqlar. Ağstafa rayonu ilə tanışlıq çərçivəsində Heydər Əliyev Mərkəzi, Heydər Əliyev parkı, Miniatür Azərbaycan Parkı, musiqi mərkəzi, xalça fabriki, peyntbol atıcılıq mərkəzi, "Saloğlu" mebel fabriki, Ağstafa Aqroparkı, Karvan-L EKO, Səməd Vurğun parkı şagirdlərdə böyük maraq oyadacaq. Məktəblilər bu marşrut üzrə Qazax rayonuna da səfər edəcəklər. Onlar Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, Ədəbiyyat Muzeyi, Mütəfəkkirlər parkı, Qazax Cümə Məscidi, Qazax Müəllimlər Seminariyası, Tarix Diyarşünaslıq Muzeyi, Dilboz at heykəli, Dədə Qorqud abidə kompleksində olacaq, Səməd Vurğun adına park, Göyəzən dağı, Damcılı mağarası, Qazax Sement Zavodu, Səməd Vurğun poeziya evi, ilk azərbaycanlı hərbi təyyarəçi, Birinci Dünya müharibəsi iştirakçısı Fərrux Ağa Qayıbovun xatirəsinə ucaldılmış "Təyyarə" abidə kompleksinə baş çəkəcəklər.

Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin çox böyük payı var. İndi ölkədə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları strateji yol xəritələrində əksini tapıb. Bu baxımdan, Lənkəran, Masallı və Astara rayonları ölkə iqtisadiyyatında mühüm yerlərdən birini tutur. Bu bölgə sitrus bağları, çay və çəltik plantasiyaları, səfalı məkanları ilə tanınır, tarixi yerləri, özünəməxsus adət-ənənələri ilə seçilir. İqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm rol oynayan bu sahələrin dirçəldilməsi üçün mövcud potensialın qorunub saxlanılması, həmçinin çəltikçilik, sitrus meyvəçilik, çayçılıq və cins heyvandarlıq təsərrüfatlarının, çəltik və çay emalı müəssisələrinin, sitrus meyvələrinin saxlanılması üçün logistik mərkəzin yaradılması nəzərdə tutulur.

Son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsindəki inşası başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Ölkəmizdə yeni-yeni istirahət guşələrinin, park və xiyabanların yaradılması, onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi də bu istiqamətdə reallaşdırılan önəmli layihələrdəndir. Park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının mənalı keçməsi üçün geniş imkanlar yaradılıb.

Respublikamızda uğurla həyata keçirilən sənayeləşmə siyasəti bölgələrdə də geniş vüsət alıb. Artıq Neftçala və Masallı sənaye məhəllələri sahibkarların istifadəsinə verilib. Sabirabad və Hacıqabul sənaye məhəllələrində isə tikinti işləri davam etdirilir. Bu sənaye məhəllələrində yüzlərlə yeni iş yeri yaradılıb.

Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfər edəcək məktəblilər bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda "Qoşa qala" qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, "Yanar bulağ"a və "Astaraçay" çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, "ASAN həyat" kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu rayonlarımız da digər bölgələrimiz kimi, həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə tanınır. Eyni zamanda, bu bölgədə barama, tütün və fındıqçılıq da geniş inkişaf edib.

Xüsusi qeyd etmək lazımdır ki, respublikamızda ənənəvi sahələrdən olan baramaçılığın inkişaf etdirilməsi və ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən zəruri tədbirlər ölkəmizin şimal-qərb bölgəsinin ən iri sənaye müəssisələrindən olan "Azər-İpək" ASC-nin fəaliyyətini əhəmiyyətli dərəcədə canlandırıb. Şəkidə yeni tut bağları salınır, baramaçılığın, ipəkçiliyin ənənələri yenidən bərpa olunur, "Azər-İpək" kombinatında geniş yenidənqurma işləri həyata keçirilir. Bir sözlə, qədim ipəkçilik sənəti ilə məşhur olan Şəkidə indi bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Şəki həm də öz mətbəxi, adət-ənənələri və tarixi məkanları ilə fərqlənir.

Məmur-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında "ASAN xidmət" mərkəzləri önəmli rol oynayır. Belə mərkəzlərdən biri də Şəkidə yaradılıb. Şəki "ASAN həyat" kompleksində dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə, 300-dən çox xidmət həyata keçirilir.

Ölkəmizin əsas turizm marşrutlarından biri olan Şəkidə "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi də istifadəyə verilib. Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşüb. Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunur. Bu mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlər də keçirilir. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Ötən il istifadəyə verilən Şəki-Kiş avtomobil yolu bölgənin iqtisadiyyatına önəmli töhfə olmaqla yanaşı, turizmin inkişafında da mühüm rol oynayır. Bu yolun inşası yerli və xarici turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişini xeyli asanlaşdırıb.

Bu gün, sözün əsl mənasında xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Bölgələrimizdə, o cümlədən Şəkidə Bayraq muzeyinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir.

Azərbaycan artıq dünya miqyasında idman ölkəsi kimi tanınır. Nüfuzlu beynəlxalq turnirlərdə, idman yarışlarında, dünya və Avropa çempionatlarında, eləcə də olimpiadalarda yüksək yerlər tutan azərbaycanlı idmançılar öz nailiyyətləri ilə bunu təsdiqləyiblər. Ölkəmizin uğurla evsahibliyi etdiyi nüfuzlu idman tədbirləri sırasında 2015-ci ildə Bakıda və Mingəçevirdə keçirilən I Avropa Oyunlarını, 2017-ci ildə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını, eləcə də "Formula 1" yarışlarını misal göstərmək olar. Bütün bunlara Azərbaycanda idmana göstərilən dövlət qayğısı sayəsində nail olunub. Bu istiqamətdə həyata keçirilən siyasət Azərbaycanda idmanın populyarlaşdırılması, yeniyetmə və gənclər arasında təbliği üzərində qurulub. Eyni zamanda, ölkəmiz üçün yeni olan idman növləri də gənclər arasında yayılmaqdadır. Qəbələdəki "Tufandağ" Xizəkçilik Kompleksi, Qubadakı qolf meydançası, "Şahdağ" Turizm Mərkəzindəki xizək məktəbi həm turizmin inkişafı, həm də yeni idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcək, onlara tikilməkdə olan Ləki-Qəbələ dəmir yolu barədə məlumat veriləcək. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi, Heydər Əliyev Mərkəzi, Bayraq muzeyi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq.

Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər. Sadalanan ənənəvi və gəlirli aqrar sahələrin inkişaf etdirilməsi rayonun qarşısında duran əsas hədəflərdəndir. Şagirdlər Heydər Əliyev Mərkəzini ziyarət edəcək, müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər. Qədim və müasir Zaqatala haqqında məlumatlar tur-aksiya iştirakçılarının böyük marağına səbəb olacaq.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə də seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına, "ABAD Factory" İstehsalat Kompleksinə ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Qubada fəaliyyətə başlayan "ASAN həyat" kompleksi barədə məlumatlar da tur-aksiya iştirakçılarının marağına səbəb olacaq.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini güllələbaran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Lələtəpə yüksəkliyinin azad olunması ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yenidən həyat qayıtdı. Prezident İlham Əliyevin böyük diqqət və qayğısı nəticəsində kənd qısa müddətdə yenidən quruldu, məcburi köçkünlər öz doğma yurdlarına qayıtdılar.

Həmçinin 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun erməni silahlı birləşmələri tərəfindən işğal edilən Günnüt kəndi və ətrafdakı mühüm strateji əhəmiyyətli yüksəkliklər, 11 min hektara yaxın ərazi 26 ildən sonra ötən ilin mayında Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə azad olundu. Bununla da ordumuz daha əlverişli mövqelərə yiyələndi. "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edildi, Dərələyəz mahalının Arpa kəndi nəzarətə alındı. "Qızılqaya" yüksəkliyinin azad olunması ordumuza İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı yaratdı.

Aprel və Günnüt qələbələri bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. 2017-ci il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, dəmir İpək yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edir, yüklər daşınır. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var.

Məktəblilərə 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən "Cənub qaz dəhlizi", iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da "Azerspace-2" peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar veriləcək.

Həmçinin şagirdlərə Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycanın 10 ən islahatçı dövlət siyahısına daxil edilərək daha çox islahat aparan ölkə elan olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi, eləcə də ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar barədə də məlumatlar çatdırılacaq.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.



## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi Elektron İmza Sertifikatlarının saxlanılması üçün kriptoqrafik xüsusiyyətli daşıyıcıların (tokenlərin) satın alınması üzrə

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi Elektron İmza Sertifikatlarının saxlanılması üçün kriptoqrafik xüsusiyyətli daşıyıcıların (tokenlərin) satın alınması üzrə açıq tender keçirir:

Tender proseduru 03 may 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin inzibati binasında (AZ1010, Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 185) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət (ərizə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *satınalma prosedurlarında iştirak etmək üçün müvafiq dövlət orqanlarından arayış;*
- *2 (iki) nüsxədə Azərbaycan dilində tender təklifi (tender təklifinin 1 (bir) ədəd əsli, 1 (bir) ədəd surəti, ikiqat zərfə daxil edilərək imzalanmış, möhürlənmiş şəkildə olmalıdır. Zərfin üzərinə "3 may 2019-cu il tarixinə qədər açılmamalıdır (tender təkliflərinin açılış vaxtı)" sözləri yazılmalıdır və zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Malların təhvil verilməsi ilə əlaqədar olaraq tələb olunan müddət satınalma müqaviləsi bağlandıqdan sonra 15 (on beş) gün nəzərdə tutulur.

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 02 may 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 23 aprel 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Məlumat Hesablama Mərkəzinin inzibati binasında (ünvan: AZ1010, Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 185) əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Məlumat Hesablama Mərkəzinin aşağıdakı hesabına tenderdə iştirak haqqı qismində 300 manat məbləğində vəsait köçürməlidirlər.

**VÖEN: 9900037691;**
**Hesab nömrəsi: AZ31AZPO91015461200420100045;**
**Bank: "Azərpoçt" MMC PF 1;**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944;**
**Kod: 691011;**
**S.W.İ.F.T: AZPOAZ22**

Tenderin əsas şərtlər toplusunu almaq üçün iddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçıların tender təkliflərinin qiymətləndirilməsi amilləri: təklif edilən məhsulun texniki tələblərə uyğunluğu, qiyməti, təhvil verilmə müddəti və qeyd edilən sahə üzrə çoxillik təcrübəsi nəzərə alınacaqdır.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Məlumat Hesablama Mərkəzinin Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 185 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tender üzrə əlaqələndirici şəxs: Həbib Abbasov; telefon: (012) 565-14-61; faks: (012) 565-14-52; elektron poçt ünvanı: hebib@rabita.az

***Tender komissiyası***

---

*Təkrar*

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti mexanizmlər və avadanlıqlar üçün ləvazimatların satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Mexanizmlər və avadanlıqlar üçün ləvazimatların satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012-464-41-11).

**İştirak haqqı 400 manat.**

**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Müəssisənin təcrübəsi haqqında məlumat;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 09 aprel 2019-cu il tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 17 aprel 2019-cu il saat 17:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 aprel 2019-cu il saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Lot-1.** Taksafonların ehtiyat hissələrinin satın alınmasına dair.

Tender iştirakçılarına təklif edilir ki, satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı, maliyyə durumu qənaətbəxş olmalı, satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş müvafiq sahədə peşəkar və təcrübəli olmalı, texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı, vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər **LOT 1**. 150 (bir yüz əlli) manat (ƏDV xaric) iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kod: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 11 aprel 2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
- *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə 19 aprel 2019-cu il saat 17:00-a qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru 22 aprel 2019-cu il saat 15:00-da "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

---

*Təkrar*

## Azərbaycan Dövlət Neft və Sənaye Universiteti 2019-cu ildə "Digər maşın və avadanlıqlar" maddəsi ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1(bir) LOT üzrə keçirilir:**

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmiş əsas şərtlər toplusunu (Nəsimi rayonu, Azadlıq pr. 20, əlaqələndirici şəxs Quliyev K., telefon: 012-598-45-05) Tender komissiyasından ala bilərlər.

İştirak haqqı: 250 manat

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti:

**VÖEN: 1400196861**
**Bakı ş. Az 1010 Azadlıq pr. 20**
**Bank rekvizitləri:**
**Kapital Bank ASC 28 may**
**Kod: 200123 VÖEN 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**H/hesab: AZ76AIIB38060029441210456112**
**SWIFT kod: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışların əsilləri və tarixləri tender elanından sonra olmalıdır).*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
- *Digər sənədlər (lisenziya, şəxsiyyət vəsiqəsi və s.).*

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcumə olunmalıdır).

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 08 aprel 2019-cu il saat 17:00-a qədər, təklif və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 aprel 2019-cu il saat 17:00- a qədər Nəsimi rayonu Azadlıq pr. 20-də yerləşən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 aprel 2019-cu il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatında xidməti istifadədə olan "Siemens" markalı, HiPath 3550 telefon sisteminin ayda bir dəfə profilaktik texniki baxışdan keçirilməsi, sistemdə proqram dəyişikliyi və ya nasazlığın aradan qaldırılması və servis xidmətinin (proqram dəyişmələri, telefon aparatlarının və rabitə xətlərinin yoxlanılması, texniki nasazlıqların aradan qaldırılması) göstərilməsinə dair

### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 19 mart 2019-cu il saat 15:00 tarixədək qəbul olunur.

**Ünvan : Bakı şəhəri, Salatın Əsgərova 85**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 05.02.2019-cu il tarixdə keçirilmiş 1 LOT üzrə "Xətai" stansiyasında sağ tunel və pilon hissədə alüminium vərəqələrdən çətirin sökülməsi, müəyyən hissəsinin bərpa edilməsi və yerinə quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Nimex" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 01.03.2019-cu il tarixdə ƏDV daxil 76912,40 (yetmiş altı min doqquz yüz on iki manat 40 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## "Azərsu" ASC daxili vəsaiti hesabına mənbələrin optimal istismarını təmin etmək və yeraltı su yatağında səviyyənin dəyişmə dinamikasını proqnozlaşdırmaq (atmosfer amilləri daxil olmaqla) məqsədilə yeraltı su səviyyəsini ölçən cihazın satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47- 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 28 mart 2019-cu il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında 29 mart 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

---

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlova anası

**GÜLLƏR ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının əməkdaşları dosent Rövşən Cavadova anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanlığı və professor-müəllim heyəti Gender və tətbiqi psixologiya kafedrasının dosenti Rövşən Cavadova anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı Yusif Cəlilliyə anası

**MÖHTƏRƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Fikrət Əzizov, İlham Məmmədov və Raqif Abbasov Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sabunçu rayonu, Bakıxanov qəsəbəsi 11 saylı şəhər poliklinikasının kollektivi poliklinikanın baş həkimi Nəriman Məmmədova anası

**HƏMİDƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi

**MUSA SALAM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Rəhman Salmanlı Tahir Aydınoğluna atası

**AYDIN RÜSTƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin kollektivi agentliyin sədri Akim Bədəlova anası

**GÜLLƏR SÜLEYMAN QIZI ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8569
Sifariş 893
Qiyməti 40 qəpik